*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2024, № 2* *ISSN: 2663-2926*
*Səhifə: 70-76* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2024.2.70*

# "Kitabi-Dədə Qorqud" dastanında "eşq"in təsviri və eşq sınaqları

**Xalidə Mete**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Gəncə bölməsi
E-mail: xalidamete@gmail.com

**Annotasiya.** Ailə türk dastanları üçün önəmli qurumdur. Bu baxımdan dastanlarda qəhrəmanlar öz ailəsini, ailə üzvlərini qoruya bilmək üçün mübarizə aparır, sınaqlara məruz qalırlar. Bunlar arasında xüsusilə ailənin təməl prinsiplərinə münasibət, qız almaq, elçilik, daha dəqiq desək, yetkinlik yaşına çatmış igidin könlünə yatan qızı almaq uğrunda uzaq və təhlükəli səfərə çıxaraq ona şəxsən özünün qəhrəmancasına elçi düşməsi məsələləri qabarıq şəkildə verilmişdir. Bu qəhrəman kor-koranə evlənmir, öz həyat yoldaşını özü seçir, onun üçün əzab-əziyyətlərə qatlaşır, düşmənlərlə mübarizə aparır, qələbə çalır və sözün əsl mənasında bu sevgi üçün can qoyur. Əslində, bütün dastanlar mübarizələrdən, sınaqlardan ibarətdir. Lakin əgər qəhrəmanlıq dastanlarında sınaq qəhrəmanlıq, ad almaq, torpaq, vətən, xalq, ailə üçün sınaqlardırsa, məhəbbət dastanlarında mübarizələr eşq, buta yolundadır. Məhəbbət dastanlarından başqa qəhrəmanlıq dastanlarında da söz ustadları öz qəhrəmanını eşq olmadan, sevgi olmadan təsəvvür edə bilməyib. Türk dünyasının qədim və zəngin sənət əsəri olan "Kitabi Dədə Qorqud"da da sevgi, eşq motivi xüsusi çalarlarla verilib. Tədqiqat işində Dədə Qorqud dastanının müxtəlif boylarında qəhrəmanların sevdiyi qız üçün apardığı mübarizələr, evlilik üçün girdiyi sınaqlar, ümumiyyətlə qəhrəmancasına elçilik motivi araşdırılıb. İlk dəfə "Kitabi-Dədə Qorqud" dastanındakı imtahan, mübarizə və sınaq növləri, sınaqda iştirak edən tərəflər, sınaqdan qalib çıxmanın yolları, sınaq motivinin variasiya problemləri tədqiqata cəlb olunmuş, sınağın növləri ümumiləşdirilmiş, sistemləşdirilmişdir.
**Açar sözlər**: dastan, Dədə Qorqud, qəhrəman, eşq, sınaq

**Məqalə tarixçəsi:** göndərilib – 16.10.2024; qəbul edilib – 24.10.2024

# Description of "love" and love tests in the dastan "The Book of Dada Gorgud"

**Khalida Mete**
Doctor of Philosophy in Philology
Ganja Branch of ANAS
E-mail: xalidamete@gmail.com

**Abstract.** The family plays an important role in the Turkic dastans. Therefore, in the dastans, the heroes go through difficult trials in order to save their loved ones. Particular attention is paid to relationships, marriage, and if you say more: mainly allocate the young man who has reached the age of majority, who goes on a long and dangerous journey for matchmaking his beloved. This hero never marries a blind man and chooses his future wife. He goes through many tests, fights enemies, wins and literally puts his life at risk for the sake of love. In fact, all epics consist of struggle and

trials. However, if in heroic epics trials are for the sake of the land, the Motherland, one's people and family, then in love epics the character fights for the sake of his beloved, eliminating all obstacles along the way.
In addition to love epics, masters of words in heroic epics also could not imagine their hero without love. In the ancient and rich work of the Turkish world, "The Book of Dada Gorgud" ("Kitabi Dede Korkud" the motives of love and passion are conveyed with a special touch. The research work examines the struggles of the heroes for their beloved girl, the tests that they go through for the sake of marriage, in general, the tests of the heroes and the heroic motives of matchmaking in various sections of the epic "Kitabi Dede Korkud" are systematized.
**Keywords**: epic, Dede Korkud, hero, love, test

**Article history:** received – 16.10.2024; accepted − 24.10.2024

## Giriş / *Introduction*

Sevmək – hər dəqiqə aşiqini ağlında tutmaq, baxdığı hər yerdə onu görmək, gözünün, könlünün həmişə onunla sabit qalması deməkdir. Hətta bir günah işlədiyində belə onunla arınmaq, onunla paklanmaqdır, eşq. Adı çəkiləndə qəlbin titrəyişi, insanın gözünün nuru, ürəyinin odu, qəlbinin aramıdır.

Varlıq səbəbi olan eşq, ayrılıq, xəyanət, həsrət, hicran, vüsal, sədaqət, qovuşma, vəfa kimi duyğular insanı digər canlılardan ayırır. Eşqin varlığı insana xosbəxt olmağı, bədbəxt olmağı, dəli olmağı, bəzən də ağıllanmağı öyrədir. Bəzən rəsmlərə, nəğmələrə, heykəllərə və digər sənət əsərlərinə çevrilərək, öz qüdrətinə aləmləri heyran qoyur. İnsanın təməl ünsiyyət vasitəsi dil olduğu üçün dillə, şeirlə, dastanla ifadə olunan eşq zamanla daha çox dallanıb-budaqlanmış, dastanlarda, nağıllarda, əfsanələrdə, rəvayət və hekayələrdə öz təməl təsvirini həkk etmiş, sevgi dillərə dastan olmuşdur.

Qeyd edək ki, xalq dilində sevgi öz səmimiyyəti, ahəngdarlığı, gücü, dəyəri ilə fərqlilik qazanır. Xüsusilə xalq dastanlarını sevgisiz, eşqsiz təsəvvür etmək mümkün deyil. Qəhrəmanlıq dastanlarının özündə belə vətən, yurd, xalq, millət sevgisi ilə yanaşı, xalq qəhrəmanının öz yarına olan sevgisi bu və ya digər şəkildə öz əksini tapır. Türk xalq dastanlarında məhəbbət dastanlarının xüsusi yeri və çəkisi var. "Əsli və Kərəm", "Tahir və Zöhrə", "Leyli və Məcnun", "Aşıq Qərib" kimi türk dünyasında geniş yayılan dastanlar daxil olmaqla, bütün məhəbbət dastanlarında eşqin, sevginin, iztirabın, sevgi yolunda çəkilən əzabların, əziyyətlərin, sınaqların təsviri o qədər gözəl dillə verilir ki, eşqin qüdrətinə inanmaya bilmirsən.

## Əsas hissə / *Main part*

Məhəbbət o qədər güclü bir qüvvədir ki, o, aşiqi bir anda bir insandan başqa insana çevirmək, tamamilə başqa bir aləmə götürmək iqtidarındadır. Məhəbbət dastanı üçün səciyyəvi cəhət olan "buta" əhvalatı dediklərimizə ən bariz sübutdur. "Dastanın qız qəhrəmanının ortaya çıxması ilə başlayan "buta" almaq hadisəsi oğlan qəhrəmanın daxili aləmini, onun bütün varlığını kökündən dəyişdirir, onu tamamilə yeni bir insana çevirir. Qəhrəman öz butasına çatmaq üçün müxtəlif maneələrlə üzləşir, sınaqlardan keçir və nə olursa olsun, öz butasına çatır" [7, s.92].

Qəhrəmanlıq dastanlarında isə buta əhvalatı, demək olar ki, yoxdur. Hələ daha qədim dövrlərlə səsləşən, eşqə dair izlərin görünmədiyi mifoloji əsərlərdə, "ilkin yaradılış dastanlarında, o cümlədən Oğuz Kağan dastanında eşq hadisəsi tamamilə fərqli formada təqdim olunur" [6, s.87]. Daha sonra – epik dövrdən romantik dövrə keçid dövründəki hekayələrdə qəhrəmanlıqla bərabər eşq də süjet xəttinə daxil olur, bu "lirik-romantik xalq hekayələrində mərkəzdə eşq yer alır və

məşuqun qovuşma macərası anladılır" [9, s.66]. Bu dövrdə psixoloji təhlillərə daha çox yer verən ədəbi cəhətdən daha sanballı əsərlər yaradılmışdır.

Eşq mövzusundan danışarkən yaradılış mifləri və Oğuz Kağan dastanını ayrıca dəyərləndirmək lazımdır. Çünki bu dastanlarda qadın-kişi münasibəti sadəcə artımla, törəmə ilə bağlıdır. "Həmin dövr xalq inanclarında qəhrəmanlıq, xalqın, millətin birliyi ideyası daha önəmli yer tuturdu" [4, s.7]. Eşqin yer almadığı söyləmələrdə qadın sadəcə bir vasitə olaraq istifadə olunmaqdadır. Bu dastanlarda qadın-kişi münasibətlərinin bu şəkildə qurulmasının digər səbəblərindən biri də toplumun hörmət etdiyi və qorxduğu bir qəhrəman yaratmaqdır. Təbii ki, belə bir sual yarana bilər: "İdeal qəhrəman aşiq ola bilməzmi?" Əlbəttə aşiq olmaq insanın təbiətində var və ideal qəhrəman da aşiq ola bilər. Lakin "Oğuz dastanının yaradıcısı onu igidliyi ilə önə gətirmək istəmiş, millətin mənafeyini, dövlətin bütövlüyünü hər şeydən üstün tutan qəhrəman olaraq yaratmışdı" [8, s.138].

Qəhrəmanlıq dastanlarındakı sevgi motivinin ən güclü təsvir şəklini biz "Kitabi- Dədə Qorqud" dastanında görə bilirik. Bu dastanda igid sevgililərin məhəbbəti və eşqin idealizə edilməsi cəmiyyətdəki sosial və siyasi şərtlərlə əlaqəlidir. Dastançı burada köçəri həyat tərzi keçirən və dövlətin bütövlüyünü qorumaq uğrunda aparılan mübarizələrdən bəhs etməklə qalmamış, qadın və kişi münasibətlərini ən təmiz, saf, ideal tərəfləri ilə təsvir etmiş, eşq mövzusuna xüsusi yer vermiş, türk cəmiyyətində aşiqin, ərin, sevgilinin yarına, qadınına olan münasibətini ən gözəl və bənzərsiz dillə anlatmışdır. Dastanın "Dirsə xan oğlu Buğac xan" boyunda övladı olmadığı üçün dost məclisində xor görülən, aşağılanan Dirsə xan düşdüyü durumun ağırlığına baxmayaraq, bunu xanımına hiss etdirməz, ona eşqlə xitab edər:

*Bəri gəl, başımın baxtı, evimin taxtı!*
*Evdən çıxıb yeriyəndə sərv boylum!*
*Topuğuna sarmaşanda qara saçlım!*
*Gərilmiş yaya bənzər çatma qaşlım!*
*Qoşa badam sığmayan dar ağızlım!*
*Payız almasına bənzər al yanaqlım.* [5, s.177]

Demək olar ki, yuxarıda qeyd olunan bu zahiri gözəllik bütün türk dastanlarında aşiq olunan qadınlarda bir-birinə bənzərdir. Çünki qadın hər şeydən əvvəl bir gözəllik simvoludur. Onun bu gözəlliyi təkcə incə beli, tuti dili, alma yanağı ilə sərhədlənmir. Aşiq olunacaq qadın zahiri gözəlliyi ilə bərabər, ağlı, mərhəməti, sədaqəti, vəfası ilə də gözəl olmalıdır. Köçəbə dövrünün qəhrəmanı qadından igidlik də gözləyir. Çünki, evin kişisi daim at belində, mübarizələrdə, evdən uzaqdır. O, əmin olmalıdır ki, evdə xanımı onun obasını, yurdunu, yuvasını qoruyacaq, yadlara qarşı igidlik göstərəcək. "Kitabi-Dədə Qorqud"un "Baybörənin oğlu Bamsı Beyrək boyu"nda aşiq olunacaq ideal qadın tipi Qanlı Qoca oğlu Qanturalının dili ilə anladılır. Qanturalı öz atasına evlənəcəyi qadını belə təsvir edir: "Mən yerimdən durmadan o durmuş olsun! Mən Qaracıq atıma minməmiş, o minmiş olsun! Mən qanlı kafir elinə getməmiş, o gedib mənə baş gətirmiş olsun!" [5, s.248]

Təbii ki, belə qadın sadə bir ailədən çıxan, adi məişət işləri ilə məşğul olan, oturub evlilik yolu gözləyən biri ola bilməzdi. Qanturalı hünərli, vəfalı, gözəl Selcan xatunu əldə etmək üçün eşq sınaqlarından keçməli, dolanbac yolları olan, atlılar batdıqca çıxa bilməyən palçıqlar, əjdaha ilanlar dələ bilməyən ormanlar, göylərə baş çəkən dik qalalar keçməli, "göz vurub könül alan" gözəli ala bilmək üçün qara buğranı, quduz aslanı, vəhşi dəvəni yenməlidir. Kimə baxsa, öz eşqiylə oda yaxan Sarı donlu Selcan xatun isə bu sevgiyə, bu mübarizəyə layiq qızdır və Qanturalının eşqi o qədər güclüdür ki, hər dəfə ölümlə üz-üzə gələr və "Sarı donlu Selcan xatun eşqinə" sevginin qüdrəti ilə ölümü yenər. Selcan xatun da ona aşiq olan yüzlərlə igiddən sadəcə Qanturalını bəyənir. Dastanın

türk variantında Selcan xatunun Qanturalını görüb aşiq olması belə təsvir olunur: "Qız köşkdən baxırdı. Belbağısı boşaldı, ehtirasdan övsəl olmuş dana kimi ağzının suyu axdı..." [5, s.251]

Ümumtürk dastanlarında sevgi yuxarıdakı misalda da göründüyü kimi, müqəddəs bir duyğudur. O hissi dadanlar isə o qədər dərin bir giriftara düşüb, elə bir sehrə qapılıb ki, o sehrli bağçanın açarı sadəcə sevgilisinə qovuşmaqdır. Sevgi bu qədər ali hiss olmasaydı, nə tarixi bəlli olmayan dastanlarda, əfsanələrdə, rəvayətlərdə, nə yazılı əbəbiyyatda söz dahiləri uca göylərin mehrabı olan eşqi bu qədər vəsf edə bilməzdi. Bu sevgi insanın canına, ruhuna hopmasaydı, həqiqi aşiqlər Füzuli kimi rindü-şeyda ola bilməz, el içindəki rüsvaylığa baxmayaraq aşiqini sevməyə davam edə bilməzdi: "Füzuli rindü-şeydadır, həmişə xəlqə rüsvadır, Sorun kim, bu nə sevdadır, bu sevdadən usanmazmı?" [1, s. 290]

Rind qayğısız, laqeyd, zirək və qorxusuz, laübali, kefcil adam deməkdir, rindü-şeyda vurğun bir rind mənasındadır. Füzulinin ömürlük "rüsvalığı" onun bilavasitə aşiqliyi ilə bağlıdır, aşiqliyi isə yüksək və qeyri-adi gözəllik hissindən irəli gəlir.

Əslində sevda melanxolik bir xəstəlikdir. Eyni zamanda qara mənasındadır (əsvəd və onun şiddətidir). Burada ədəbi dəlilik, başqa sözlə ədəbi aşiqlik xəstəlikdir. Sevda həmçinin eşq və məhəbbət mənası da daşıyır. "Yar cəfadan usanmır, aşiq sevdadan usanmır" [3, s.164].

"Kitabi-Dədə Qorqud" dastanının qəhrəmanları da sevdiyinə qovuşmaq, onlara layiq olmaq üçün ən ağır mübarizələrdən keçir, yağı düşmənləri inlədən dastan qəhrəmanları sevgi qarşısında təslim olur, sevgilisinin yolunda baş qoyurlar. Bəzən bu mübarizələr elə qız qəhrəmanın özü ilə aparılır, ona layiq olmaq üçün sınaqlara girilir.

"Baybörənin oğlu Bamsı Beyrək boyu"nda Beyrək və Banıçiçək elə ilk qarşılaşmada bir-birinə aşiq olur. Lakin bu eşqə izn vermək üçün ər olan kəsin sınaqlardan keçməsi, rəqibini məğlub etməsi vacibdir. Əks halda, qadın qəhrəman qalib olmayan kişini özünə yar olaraq qəbul edə bilməz. Onun evinin, ocağının yiyəsi məğlub bir ər ola bilməz. Hələ bir qadına yenilən ər heç ola bilməz. Banıçiçək də ancaq Bamsı Beyrək onu yendikdən sonra özünü güvəndə hiss edə biləcəyi bir ərə təslim edə bilər. Bu isə o deməkdir ki, türk toplumunda qadının sevgisi kor-koranə deyil. O aşiq olduğu kişiyə güvənməli, etibar etməli, ona arxasını rahatlıqla yaslamalı, ondan əmin olmalıdır. Bu səbəbdən də qadın kişidə güc, qüvvə, etibar, sevgi və kişi də qadında gözəllik, vəfa, etibar, sədaqət və dövrün tələbinə uyğun igidlik kimi güvənverici güc hiss etdiyi zaman eşqin təməlləri möhkəm qurulmuş olur. Bu cür qurulan ailələrdə də bir-birinə aşiq olan ər və arvad sarsılmaz tellərlə bir-birinə bağlanmış olur, sevdiyi üçün ölümü belə gözə alır. Eyni boyda Beyrəyin yalançı ölüm xəbərini eşidən Banıçiçəyin hərəkətləri, ölməyən sevgisi eşqin qadın-kişi münasibətlərinin sonrakı mərhələlərinə də ehtiramla daşındığının göstəricisidir.

Eşqlə qurulan ailədə ideal qadın-kişi münasibətlərinin ən bariz nümunəsi dastanda "Duxa Qoca oğlu Dəli Domrul boyu"nda təsvir olunur. Əzrayılla döyüşdə məğlub olan Dəli Domrula başqa bir can qarşılığında həyatının geri verilməsi təklifinə qarşı yaşamaq üçün mübarizəyə başlayan qəhrəmana nə atası, nə anası öz canını vermir. Bu zaman dastanda Dəli Domrulun arvadının timsalında eşqin ən güclü və ən saf halını gözlər önünə sərən bir qadın məhəbbətinin qüdrəti sərgilənir.

*Əzrayılın Dəli Domrulun canını ala biləcəyini eşidən "yad qızı" – "arvad"*
*"Qarşı yatan uca dağları səndən sonra mən neylərəm,*
*Yaylayarsam, gorum olsun!*
*Soyuq-soyuq sularını mən içərsəm, mənim qanım olsun!*
*Qızılını-gümüşünü xərcləyərsəm, mənim kəfənliyim olsun!*
*Səndən sonra bir igidi sevib-seçsəm,*
*ərə getsəm, birgə uyusam,*
*Bir əjdaha ilan olub, məni çalsın!...*

*... Yerlər şahid olsun, göy şahid olsun,*
*Qüdrətli Allah şahid olsun, qurbanam sənə,*
*Mənim canım qurban olsun sənin canına!”* [5, s.247]

Dastançı bu qadın qəhrəmanı yaradarkən Oguzlarda ailə bütünlüyünün önəmini, sevginin qüdrətini, doğru ər-arvad seçimini diqqət mərkəzinə gətirmək istəmiş, öz əri üçün canını qurban verə biləcək ideal qadın tipinə diqqət çəkmişdir. Bununla da, bu fədakarlığa qarşılıq Domrula verilən uzun ömrü ailədə bir-birinə verilən dəyərin mükafatı kimi qiymətləndirmiş, hər zamankı kimi eşqin zəfərinə, əzminə və qələbəsinə inamı artırmışdır.

“Kitabi-Dədə Qorqud”da eşqə, məhəbbətə, ailə münasibətlərində sevginin önəminə ayrılan xüsusi diqqətin nəticəsidir ki, sonrakı dövrlərdə yaranan dastanlarda da bu mövzularda bənzər xarakterlər yaradılmışdır. “Alpamış” dastanında Alpamışla Berçin arasındakı eşq və sınaqlar, mübarizələr Banıçiçəklə Beyrək arasındakı eşqə bənzərdir.

Selcan xatun kimi Banıçiçək də, Koroğlunun aşiq olduğu Nigar xanım da mübariz, öz yarını özü seçən, evinə, ocağına, ərinə sadiq qadın tipləridir.

“Fərhad və Şirin”, “Leyli və Məcnun”, “Arzu və Qənbər”, “Tahir və Zöhrə” kimi bir çox eşq hekayələrində də sevgiyə bağlı hər cür mübarizə və sınaq formaları görmək mümkündür.

## Nəticə / *Conclusion*

Ümumiyyətlə, bütün dastanlar sınaqlardan ibarətdir. Dastanın əvvəlində ortaya bir problem qoyulur, o problemin həlli üçün mübarizə və sınaqlar başlayır, çətinlik, təhlükə ilə dolu sınaqlardan uğurla çıxan qəhrəman yarına qovuşur və dastan bitir. “Kitabi-Dədə Qorqud” dastanında da sınaqları ümumiləşdirsək, müxtəlif boylarda dastan qəhrəmanı ilk olaraq igid adını almaq üçün qəhrəmanlıq göstərib adalma sınaqlarına, daha sonra xalqı, vətəni, yurd-yuvasını qorumaq, onları yağı düşməndən qorumaq üçün sınaqlara girir. Məhəbbət dastanlarında isə dastanın əvvəlində hansısa bir gözəl ona “buta” verilir, aşiq olur, həmin qızın yaşadığı yerə çatmaq üçün yolda rast gələn maneələrə sinə gərir, qızın yaşadığı ünvana çatanda qızın atası, qardaşı, qızın talibləri olan vəzir, cəngavər və ya digər rəqiblərlə sınaqlara girir, sonra isə əlavə olaraq söz yarışlarında sınanır, bəzən qız özü onun ağlını yoxlamaq üçün söz savaşına dəvət edir. Bütün bu sınaqlara qalib gəldikdən sonra qəhrəman öz yarına qovuşur.

“Kitabi-Dədə Qorqud” dastanında isə demək olar ki, bütün bu sınaqlar cəmləşir. Qəhrəman həm ad almaq, həm yurdunu qorumaq, həm də məhəbbətinə sahib çıxmaq üçün bütün mübarizələrdən qalib çıxmalı və sonra yarına qovuşmalıdır. Ümumiləşdirsək, “Kitabi-Dədə Qorqud” dastanında qəhrəmanın sınaqlarını aşağıdakı kimi qruplaşdıra bilərik:

1. Həqiqi ad qəhrəmana baş kəsib qan tökməklə, igidlik, hünər göstərməklə verilir. Bu ada layiq olmaq üçün qəhrəman ölüm-dirim mübarizəsinə girir, ölümə qalib gəlir. Layiq olduğu bu ad qəhrəmanın həm də bəy olma, sosial-siyasi statusunun epik təzahür formasıdır. Advermə türk cəmiyyətindəki insanlıq, qəhrəmanlıq və kişilik obrazlarının birləşmiş paradiqmasıdır.
2. Yurdunu, yuvasını, elini, ailəsini qorumaq, onları yağı düşmənin tapdağından qorumaq üçün qəhrəmanlıq sınaqlarına girir, bir qoşuna qarşı təkbaşına vuruşur, yağının elinə gedir və əsir olan ailəsini qurtarır.
3. Qəhrəman evlənmək üçün ancaq aşiq olduğu qızı seçir, onu əldə etmək üçün vəhşi heyvanlarla, qarşı tərəfin ordusu ilə döyüşür, qəhrəman evlənəcəyi qızla döyüşə girir, ağıl savaşlarına, söz savaşlarına girir, çox çətin bir vəzifə dalınca göndərilir.

Qəhrəmanın ailəsi, sevgilisi, gələcək həyat yoldaşı üçün verdiyi sınaqlar, bu sınaqların, mübarizələrin önəmi, ailəyə, topluma daxil olacaq gəlinin seçilməsinin məhz dastan qəhrəmanının özünə həvalə edilməsi mesajını verməklə, əslində dastançılar cəmiyyətə yeni-yeni üzv olmağa çalışan, həyata hazırlaşan gənclər üçün ideallar yaratmaq, onların necə bir cəmiyyətdə yaşadıqlarını,

bu cəmiyyətin inancları, etiqadları, mühakimələri, təbiətə, dünyaya baxışı, qısacası, dünyaya baxış fəlsəfəsini irəli sürməkdədir.

Eşq insanın var olduğu gündən yox olub gedənədək ən təməl ehtiyacıdır. Sadəcə dünya yarandığı gündən bu günədək bu ehtiyacın ifadə formaları və şəkilləri dəyişmiş, lakin nə önəmini, nə insan həyatındakı yerini, nə aşiqin məşuq, məşuqun aşiq üçün həyat boyu sınaqları, fədakarlıqları, vəfa və sədaqətləri ilə eşqi yaşada biləcəkləri gerçəyini dəyişməmişdir. Əsrlər, qərinələr keçəcək, neçə-neçə dədə qorqud dastanları, neçə-neçə nağıla, əfsanəyə çevrilən hekayələr yaranacaq, ülvi sevgilərə nəğmələr qoşulacaq, şeirlər, dastanlar yaradılacaq, ancaq heç vaxt dünyada eşqin və məhəbbətin yaşamın təməli olmaq rolu azalmayacaq. Necə ki, dahi Nizami Gəncəvi deyirdi: "Eşqsiz bir adam bir neydir, qırıq, Yüz canı olsa da, ölüdür artıq" [2, s.49].

**Ədəbiyyat / *References***


1. Füzuli, M. Əsərləri. (Cild 1). – Bakı: Şərq-Qərb, – 2005.
2. Gəncəvi, N. Xosrov və Şirin.- Bakı: Yazıçı, – 1982.
3. Xəliloğlu, S.Ə. Füzuli qəzəllərinin şərhi. (Cild 4). – Bakı: Adiloğu, – 2004.
4. Keskin, A. Destanda, ideal kahramanın yaratılması için diğer unsurların kullanımı hakkında. Oğuz Kağan Destan Metninde Kahramanın Takdimi. Milli Folklor Dergisi. – 2012, Seriya 96, 5-18.
5. Kitabi-Dədə Qorqud. Əsl və sadələşdirilmiş mətnlər. – Bakı: Öndər Nəşriyyatı, – 2004.
6. Mete, X. Türk dastanlarında qəhrəmancasına elçilik motivi. Elmi əsərlər (iqtisadiyyat, filologiya, tarix, coğrafiya, pedaqogika, psixologiya, riyaziyyat) Azərbaycan Respublikası Naxçıvan Universiteti, Naxçıvan, Nuh, – 2019, 2(13), 85-90
7. Mete, Kh. Epic semantics of the bud trial in Turkish love epic stories European Journal of Science and Theology. – 2020, Vol.16, No.1, 91-97.
8. Yusupov, Y. Miniatures Illaminstions of Nizami's "Hamsah". – Tashkent: 1985.
9. Мете, Х. Формы необычного рождения героев тюркских дастанов. Вестник Московского университета. Серия 13. Востоковедение, – 2022, № 1, 84-91


## Описание «любви» и любовные испытания в эпосе «Китаби-Деде Коркуд»


**Халида Мете**
Кандидат филологических наук
Гянджинский отдел НАНА
E-mail: xalidamete@gmail.com



Резюме. В тюркских дастанах семья играет важную роль. Поэтому в дастанах герои проходят через трудные испытания, чтобы спасти своих родных и близких. Особое внимание уделяется отношениям, браку, а если сказать подробнее: главным образом выделяют юношу достигшего совершеннолетия, который отправляется в далекое и опасное путешествие для сватовства возлюбленной. Этот герой никогда не женится вслепую и сам выбирает свою будущую жену. Он проходит множество испытаний, сражается с врагами, побеждает и в буквальном смысле ставит под угрозу свою жизнь ради любви. На самом деле все былины состоят из борьбы и испытаний. Однако, если в героических эпосах испытания являются ради земли, Родины, своего народа и семьи, то в любовных эпосах персонаж борется ради своей возлюбленной, устраняя на пути все преграды.

Помимо любовных эпосов, мастера слова в героических эпосах также не могли представить своего героя без любви. В древнем и богатом произведении турецкого мира «Китаби Деде Коркуд» мотивы любви и страсти переданы с особым оттенком. В исследовательской работе рассматриваются борьбы героев за любимую девушку, испытания, которые они проходят ради брака, в целом систематизируются испытания героев и героические мотивы сватовства в различных разделах эпоса «Китаби деде Коркуд».
**Ключевые слова**: эпос, Деде Коркут, герой, любовь, испытание